*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 7 Sayı: 6 / 75-81 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2025 / Volume: 7 Issue: 6 / 75-81 e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/48/75-81

**Samir Baxşəliyev**
Bakı Dövlət Universiteti
https://orcid.org/0000-0003-4054-2974
baxshaliev81@mail.ru

# Ərəb xilafəti ikinci Rəşidi Xəlifəsi Ömər İbn Xəttabın hakimiyyət illərində

## Xülasə6

Tədqiqatdan aydın olur ki, İslam tarixində Rəşidi xəlifələri dövrünün ən parlaq nümayəndələrindən biri olan Ömər ibn Xəttabın gördüyü işlər və xidmətləri Ərəb Xilafətinin möhkəmlənməsində böyük əhəmiyyətə malik olmuşdur.

Məlum olur ki, Ömər ibn Xəttabın hakimiyyəti illərində xilafətin hərbi, inzibati və maliyyə strukturları formalaşır. Ömər həmçinin, İslam dünyasında hüquqi və sosial islahatlar həyata keçirərək, yeni dövlətin möhkəm təməllərini atır.

Qarnizon şəhərlərində onun fərmanları, ciddi hərbi nizam-intizam tətbiq etməklə yerinə yetirilir. Həmçinin, ərəb döyüşçüləri və onların ailələri, hərbi xidmətlərinə görə səxavətli təzminatlar və işğallar zamanı qənimətlərdən əldə edilən böyük ölçüdə pay alırlar.

Ən əsası, İslam dini təkcə Məkkədəki ilk müsəlman ərəblərin şəxsi kultundan çıxaraq bütün ərəb qəbilələrinin birliyinin dayandığı mənəvi ideoloqiyaya çevrilmiş oldu.

***Açar sözlər:*** *Xilafət, Ömər ibn Xəttab, islahatlar, İslam dünyası, hakimiyyət*

**Samir Bakhshaliyev**
Baku State University
https://orcid.org/0000-0003-4054-2974
baxshaliev81@mail.ru

# Arab Caliphate During the Reign of the Second Rashidun Caliph Umar Ibn Al-Khattab

## Abstract

The study shows that the activities and merits of Omar ibn Khattab, one of the most outstanding representatives of the era of the Righteous Caliphate in Islamic history, were of great importance for strengthening the Caliphate.

It is known that during the reign of Omar ibn Khattab, the military, administrative and financial structures of the Caliphate were formed. Omar also carried out legal and social reforms in the Islamic world, laying a solid foundation for the new state.

In garrison cities, his decrees are carried out by introducing strict military discipline. In addition, Arab soldiers and their families receive generous rewards for their military service and a significant share of the captured trophies.

But most importantly, the religion of Islam turned from a personal cult of the first Arab Muslims in Mecca into a spiritual ideology that united all Arab tribes.

***Keywords:*** *Caliphate, Omar ibn Khattab, reforms, Islamic world, governance*

## Giriş

İslam dünyada ümumbəşəri bir dindir və insan həyatının bütün sahələrini əhatə edir. İslam mədəniyyətinin əsasları Qurandan, qanunları isə Sünnədən (İslam dinində Quranın əmrlərinə əsaslanan müsəlmanların davranış qaydalarına verilən ad) qaynaqlanır. Ərəblərin yaratdığı ilk İslam dövləti dünya tarixşünaslığında Ərəb Xilafəti adını almışdır.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Bu dövlətin əsasında uzun müddət mədəni və iqtisadi inkişafda digər dünya sivilizasiyalarını qabaqlayan İslam sivilizasiyası yarandı. Bu sivilizasiya olmadan bu gün "Şərq" anlayışının mahiyyətini təsəvvür etmək mümkün deyil. Xilafət İslamın banisi Məhəmməd peyğəmbərin qəbul edilmiş varisi kimi təyin edilmiş hökmdarlardan biri tərəfindən idarə olunan siyasi-dini qurumdur.

Bu anlayış İslam teologiyasından (dini təlim sistemi) gəlir və müsəlman cəmiyyəti üçün mühüm əhəmiyyət daşıyır. Xilafət ənənəvi olaraq şəriət qanunlarına əsaslanan və müsəlmanların rifahının qayğısına qalan İslam dövlətinin qurulması ilə əlaqələndirilir. Xilafət ərəbcə xəlifə (varis) sözündən götürülmüş anlayışdır ki, Məhəmməd peyğəmbərin vəfatından sonra İslam dövlətində yaranmış ən mühüm vəzifədir. Bu vəzifə bütün müsəlmanların ümumi rəhbərlik və idarəçilik altında birliyini ifadə edir. Xəlifə bir sıra mühüm funksiyaları, o cümlədən idarəetmə, hərbi idarəçilik, məhkəmə fəaliyyəti, İslamın təbliği və imanın qorunmasını yerinə yetirir. O, həmçinin müavinətləri paylamaq və ehtiyacı olanlara kömək etmək üçün məsuliyyət daşıyır.

Xilafət ideyası İslam imperiyasının ilk hökmdarları dövründə yaranmış və sonralar inkişaf etdirilmişdir. Tarix boyu baş verən hadisələrlə əlaqədar xilafət anlayışı müxtəlif dəyişikliklərə və mübahisəli şərhlərə məruz qalmışdır. Xilafətin əsas ideyası müsəlman icmasının birliyini qorumaq, müdafiəsini və rifahını təmin etməkdir. Xəlifə yalnız Qurani-Kərimə əsaslanan sülh, ədalət və İslam prinsiplərini təbliğ etməlidir. Peyğəmbər dövrünün İslam tarixi sona çatdıqdan sonra onun məşhur səhabələri (Səhabə Məhəmməd Peyğəmbəri görüb İslamı qəbul edən və müsəlman olduğu halda ölən şəxslərə deyilir) Əbu Bəkr, Ömər, Osman və Əlinin dövlət başçısı olduqları otuz ilə yaxın davam edən dövrə İslam tarixində Raşidi Xəlifələri dövrü deyilir (Koseş, 2020, s. 15).

Ərəb dövlətin yaradıcısı Məhəmməd peyğəmbərdən sonra hökmdar seçilən bu şəxslər İslam dünyasında saleh şəxslər hesab edilir. Onlardan sonrakı hökmdarlar isə hakimiyyətin ötürülməsi və ya varislik yolu ilə taxt-taca sahib olmuşdular.

Hesab edirik ki, "Ərəb xilafəti" ifadəsinin işlədilməsi İslam prinsiplərinə heçdə tam uyğun deyil. Çünki İslam yayıldıqca onun təbliğ etdiyi dəyərlər tərəfdarları yaşayan ərazidə və etnik mənsubiyyətindən asılı olmayaraq genişlənən Xilafətdə bütün müsəlmanları bir bayraq altında birləşdirdi. Getdikcə daha çox suriyalılar, farslar, qibtilər, bərbərlər və s. kimi xalqların İslamı qəbul etməsi nəticəsində ərəblər müsəlmanların ümumi kütləsində azlığa çevrildilər.

Fikrimizi əsaslandırmaq üçün burada bir məqama diqqətinizi yönəltmək istərdik. Məsələ bundadır ki, sözü gedən dövrlərdə İslam dövləti dini prinsiplər əsasında qurulduğundan vahid idi və milli prinsiplər heç bir əhəmiyyət kəsb etmirdi. Məhz bu səbəbdən dövləti Ərəb Xilafəti adlandırmaq düzgün deyil. Dövlətin "Ərəb xilafəti" adlanması yalnız ərəblərin yaşadığı ərazini təsvir etdiyindən məntiqli olardı ki, etnik mənsubiyyətinə baxmadan bütün müsəlmanları əhatə edən bir dövlət anlayışını bildirən "İslam xilafəti" ifadəsi işlənsin. İslam tarixində Əbu Bəkrlə başlayan, Ömərin hakimiyyəti illərində qüdrətlənən, Osmanın iqtidarı dövründə məzhəbləşən (dini əqidə ilə bağlı seçilən yol), Əlinin dövründə isə vətəndaş müharibəsi ilə bitən dövr "Rəşidi Xilafəti" dövrü adlanır.

Rəşidi xəlifələrindən olan ilk üç xəlifə Mədinə şəhərində, sonuncu nümayəndələri isə Kufə şəhərində yaşamışdır (Mardanşin, 2012, s. 65).

**Tədqiqat**

Bu tədqiqatımızı ərəb tarixində ilk nizami ordunu quran ikinci Rəşidi Xəlifəsi Ömər ibn Xəttaba həsr etmişik. Bir əsrdən çoxdur ki, mövzu üzrə ixtisaslaşmış tədqiqatçılar cahiliyyə (İslamaqədərki dövr) içində yaşayan ərəblərə bütün Aralıq dənizini və qonşu torpaqları fəth etməyə imkan verən səbəbləri araşdırırlar. Fəthlərin müvəffəqiyyətinin səbəbini adətən demoqrafik, iqtisadi, siyasi və hərbi amillərlə əlaqələndirirlər. Ümumi qəbul edilən müddəa belədir ki, demoqrafik partlayış ərəbləri yaxınlıqdakı ərazilərə kütləvi yürüşə sövq etmişdi.

Digər bir tezisə görə isə ərəb tayfalarının yeni dinin bayrağı altında birləşməsi, uzun sürən Bizans-Sasani savaşları və fəth edilən ərazilərdə baş verən epidemiyalar ərəblərin asan qələbəsi üçün əlverişli şərait yaratmışdı. Bir çox tədqiqatçılar Ərəbistanın bir-birinə düşmən olan qəbilələrinin birləşməsində İslamın həlledici rolunu və onların qonşuları arasında yeni dini yaymaq istəklərinin böyük ərəb fəthlərinin əsas səbəbi olduğunu qeyd edirlər.

Hesab edirik ki, məhz İslam dinini daha çox ölkələrdə yaymaq amili ərəblərə Şərqin hüdudlarından kənarda, Afrikadan Çinə qədər uzanan yeni hökmdarlara çevrilməyə imkan verdi. Köçəri ərəblərin

mədəni, maddi, təşkilati cəhətdən işğal edilən ölkələrin xalqlarından geri qalmalarına baxmayaraq onlar haqlı olaraq dövrün iki yenilməz kimi görünən fövqal imperiyalarını məğlub edə bildilər.

Yuxarıda qeyd edildiyimiz kimi, müsəlman ekspansiyasının şimala doğru genişlənməsi ərəb qəbilələrinin Məhəmməd peyğəmbərin əsasını qoyduğu tövhid (təktanrıçılıq anlayışının İslamda qarşılığı) dininin adından çıxış edən yeni hakim elitanın rəhbərliyi ilə birləşməsinin məntiqi nəticəsi idi.

Qeyd edək ki, müsəlman icmasının rəhbərləri əsasən şəhər mühitində yaşayanlardan, Məkkə, Mədinəlilərdən ibarət olduğu halda İslamı könüllü və ya zorla qəbul edərək onlara tabe olanların əksəriyyəti köçəri ərəb tayfalarından ibarət idi. Məhəmməd peyğəmbərin yaratdığı və onun ardıcıllarının gələcəkdə idarə etdiyi dövlətə əvvəlcə həm müsəlman, həm də xristian ərəb qəbilələri daxil idi.

Maraqlıdır ki, ərəb istilalarının əvvəlində xristian ərəblər heterodoksluqlarına (qeyri din mənsubları) baxmayaraq, müsəlman dövlətinin və hərbi qüvvələrinin tamhüquqlu üzvləri hesab edilirdilər. Onların xüsusi statusunun ən bariz nümunəsi müsəlman dövlətinin himayəsi altında yaşayan digər xristianlara, eləcə də yəhudilərə tətbiq edilən cizyə (bütün qeyri müsəlmanların ödədiyi can vergisi) vergisindən azad edilmələri idi (Knış, 2015, s. 72).

Bu xristianlar xilafətin dövlət strukturlarında istənilən yüksək vəzifələri də tuta bilərdilər. Xristian alimləri xüsusi ilə məşhur idilər. Tarixçi əl Qüftinin məlumatına əsasən Abbasi xəlifəsi Məmun 831-ci ildə Xilafətdə ilk elmi məktəb hesab edilən "Hikmətlər Evi"ni qurarkən 37 xristian alimin köməyindən istifadə etmiş, onların sırasından Əbu Zəkəriyyə Yuhannanı isə məktəbə rəhbər təyin etmişdi (Folta, 1987, s. 70).

Ərəblərin öz qonşularına qarşı işğalçı yürüşlərinin ideoloji əsaslarını tapmaq bir o qədər də çətin deyil. Belə ki, Allahın iradəsinə təslimiyyəti tanımaq istəməyənlərə qarşı çoxsaylı Quran çağırışları ilk əvvəllər Məkkə müşriklərinə və Yəsrib yəhudilərinə qarşı yönəlsə də Rəşidi xilafəti dövründən başlayaraq müsəlmanların əleyhdarları İslam düşmənləri hesab edilirdilər. Qurani-kərimin əl-Əhzab surəsinin 26-27-ci ayələri açıq şəkildə ardıcıllarına bütün əleyhdarları üzərində qalib gələcəyini vəd edir (Musayev, 2013, s. 340).

Üstəlik, bunu da qeyd edək ki, hələ Məhəmməd peyğəmbərin özü Suriya və Fələstinin cənub sərhədlərinə, ən azı, iki hərbi ekspedisiya göndərdi. Onun bu siyasəti varislərinin hakimiyyəti illərində ərəblərin fəth (Ərəblər görə İslam dininin yaymaq məqsədi ilə hər hansısa şəhər və ya ölkənin silah gücü ilə zəbt etmək) adlandırdığı işğallara başlamasına səbəb oldu. Peyğəmbərimizin vəfatından sonra Əshabı-kiramın (səhabələrin) söz birliyi ilə İslamı qəbul edən ilk insanlardan biri olan Əbu Bəkr əs-Siddiq müsəlmanların ilk xəlifəsi seçildi. Çətin şərtlər və sıxıntılı günlərdə dövlət başçısı olan Əbu Bəkrin hakimiyyəti illərində ölkədəki bütün məhkəmə işləri Ömər ibn Xəttaba həvalə edilmişdi. Əbu-Bəkr ölümündən əvvəl digər səhabələrin narazılığına baxmayaraq, təkidlə məhz Öməri öz varisi təyin etdi (Ulkyu, 2018, s. 28-29).

Əbu Bəkr İslam cəmiyyətinin sabitliyini təmin etmək, güclü və təcrübəli bir rəhbər seçmək məqsədi ilə Ömərin xəlifə olmasını istəyirdi. Tarixi hadisələrin inkişafı göstərdi ki, Əbu Bəkrin Öməri xəlifə seçməsi, ümumilikdə, doğru bir qərar olmuşdur. Belə ki, Ömərin xəlifəliyi dövrü həm dini, həm də dünyəvi baxımdan İslam dövlətinin ən parlaq dövrlərindən biri hesab olunur. Əbu Bəkrdən sonra müsəlmanların ikinci xəlifəsi olan Ömər İslam peyğəmbərinin qəbiləsi olan Qureyş qəbiləsinin Bəni Ədiy sülaləsinə mənsubdur. İslamı qəbul edən qırxıncı şəxs olan Ömər ibni Xəttab hicrətdən (tərk etmək) 40 il əvvəl 582-ci ildə anadan olmuşdu (Ulkyu, 2018, s. 29).

O, "Aşərə əl-Mubəşşirin", yəni hələ sağ ikən vəd edilmiş cənnət məkanı ilə müjdələnən on səhabədən biridir. Ömər Qureyş qəbiləsinin ən mötəbər adamlarından, qəbilə ağalarından biri idi. Gəncliyində Qureyşdə elçi-səfir vəzifəsini yerinə yetirirdi. Bu vəzifə o dövrdə ərəblər arasında çox nüfuzlu bir vəzifə hesab edilirdi. Əgər qəbilə daxilində və ya başqa bir tayfa ilə münaqişə baş versəydi, tərəflər öz nümayəndələri kimi Ömərə müraciət edərdilər. Ömər çox güclü, heybətli biri idi O, eyni zamanda natiqlik qabiliyyətinə malik əla təbliğçi idi. Şama və İraqa çoxlu ticarət səfərləri edən Ömər müsəlman olmamışdan əvvəl fars və ərəb hakimləri ilə görüşlər keçirirdi ki, bu da onun nüfüzundan xəbər verirdi.

Sərt xarakteri ilə tanınan Ömər cahiliyyət dövründə də yaşadığı üçün İslam dinini ərəb cəmiyyətinin ənənəvi dəyərlərinə və inanclarına təhlükə kimi görünürdü. Bu səbəbdən də İslamı qəbul etməzdən əvvəl ilk müsəlmanlara qarşı çox sərt və düşmənçiliklə yanaşma rəftarı ilə məşhur

idi. Lakin o, müsəlman olandan sonra İslamın güclənməsinə və genişlənməsinə böyük töhfələr vermişdir. Ömər ibn Xəttab xəlifə olduqdan sonra, İslamın yayılmasına böyük əhəmiyyət verdi və xüsusi ilə Suriyada və İraqda strateji dəyişikliklər etdi. Onun dövründə İslam orduları bu ərazilərdə mühüm uğurlar qazandı. İraqın fəthinə xüsusi diqqət ayrıldı və Ömər burada bəzi əhəmiyyətli hərbi və inzibati islahatlar həyata keçirdi. O, Xalid ibn Validin rəhbərliyi altında İslam ordusunun Suriya və İraqda qazandığı uğurlara baxmayaraq, onun yerinə peyğəmbərin səhabələrindən biri Əbu Ubeydə Cərrahı qoşunların baş komandanı təyin etdi (Ülkü, 2016).

İslam tarixi ilə bağlı bəzi əsərlərdə Bəni-Təmim qəbiləsinin başçısı Malik ibn Nüveyrənin Xalid ibn Validin əmri ilə qətlə yetirilməsi səbəbindən Ömərin sonuncunu vəzifəsindən uzaqlaşdırdığını qeyd edilir.

Hesab edirik ki, Ömərin bu qərarı İslam dövlətinin idarəetmə strategiyasını və mərkəzi hakimiyyəti qorumağa yönəlmiş bir addım idi. Belə ki, Xalid ibn Valid, İslamın ən böyük qəhrəmanlarından biri olaraq çox sayda döyüşlərdə böyük zəfərlər qazanmışdı. Lakin onun başçılığı ilə ordu müstəqil olmuş və şəxsin nüfuzundan asılı vəziyyətə düşmüşdü. Bu hal ordunun idarə edilməsində çətinliklər yaradaraq gələcəkdə hələ yeni qurulan dövləti zəiflədə bilərdi. Ömər İbn Xəttabın Xalid İbn Validi vəzifəsindən azad etməsi, İslam dövlətinin uzunmüddətli sabitliyini və güclü idarəetmə strukturunu qurmaq məqsədi ilə verilmiş siyasi bir qərar idi.

Ömər xəlifə olduqdan sonra Xilafətin ilk illərində hələ Əbu Bəkr əs-Siddiqin dövründə başlayan fəth siyasətini daha da gücləndirdi və genişləndirdi. Onun on illik hakimiyyəti dövründə müsəlman dövləti Bizans Fələstinini, Suriyanı və Misiri, eləcə də Sasanilər imperiyasının digər ərazilərini öz torpaqlarına qatmışdı (Rodionov, 2001, s. 49).

635-ci ildə Ömərin rəhbərliyi altında Mədinənin müsəlman rəhbərliyi o dövrdə paytaxtı Dəməşq olan Bizans imperiyasının əyalətini təşkil edən Suriya və Fələstinin sistemli şəkildə fəthinə başlamaq qərarına gəldi (Knış, 2015, s. 76).

23 avqust 634-cü ildə Xəlifə Ömər Sasanilərə qarşı vuruşan İslam ordusuna dəstək məqsədi ilə Əbu Ubeydə bin əl-Cərrahın başçılığı altında min nəfərlik ordunu İraq cəbhəsinə göndərdi (Yilmaz, 2016, s. 106).

Sasanilərə qarşı ardıcıl qələbələr qazanan İslam orduları sürətlə sərhədlərini genişləndirməyə başladılar. İslam dövlətinin sərhədlərinin genişlənməsi ilə paralel olaraq, işğal olunmuş torpaqların təhlükəsizliyini təmin etmək məqsədi ilə müxtəlif hərbi və inzibati tədbirlər həyata keçirilməli idi. Bu məqsədlə Ömərin əmri ilə 638-ci və 642 ci illərdə idarəetməni asanlaşdırmaq, fəth edilmiş ərazilərə xaricdən gələ biləcək hücumlara qarşı müdafiə məqsədi ilə Bəsrə, Küfə, Nil çayının şərq sahilində isə Fustat kimi qırx min əhalinin yerləşə biləcəyi düşərgə şəhərləri yaradıldı (Yildirim, 2013, s. 307).

Ömər təkidlə israr edirdi ki, ərəb döyüşçüləri və onların ailələri məhz belə xüsusi düşərgə şəhərlərində yaşasınlar. Onun bu siyasəti, ərəbləri işğal edilmiş ərazilərdə yerli xalqın mədəniyyətinin təsirinə düşməkdən təcrid edərək İslam dəyərlərinə sadiq qalmalarına, həmçinin Xilafətə qarşı müqaviməti azaltmağa yönəlmişdi. Düşərgə şəhərlərində yaşayan ərəb döyüşçüləri çox vaxt öz qəbilə mənsubiyyətindən asılı olaraq ayrıca məhəllələr təşkil edirdilər. Hər məhəllə adət-ənənələrini, dillərini və mədəniyyətlərini qoruyan bir növ icma idi ki, bu da onlara işğal edilmiş ərazilərdə qəbilə kimliyini qoruyub saxlamağa imkan verirdi.

Xəlifə Ömərin əmri ilə qonşu imperiyaların ərazilərinə bir neçə ildırımsürətli kəşfiyyat reydlərindən sonra xilafət qoşunları mütəşəkkil işğal kampaniyalarına başladılar. Hələ ilk xəlifə Əbu Bəkr ölüm yatağında ikən Sasani ordusu ərəblər tərəfindən zəbt edilən əraziləri geri qaytarmağa səy göstərdi. Bu məqsədlə Sasani hərbi qüvvələrinin baş komandanı Rüstəm Fərruxzad Cəban, Jəlin və III Yezdəgird xalası oğlu Nərsi kimi sərkərdələrin rəhbərliyi ilə üç böyük ordu topladı (Mutlu, 2018, s. 375).

Cəban ordusu ilə Fərat çayının sahilində yerləşən Bədəklə bölgəsinə, Nərsi öz qoşununu İranın qərb hissəsində yerləşən Kəsfərə, Jəlinin qoşunu isə Kufa və Bəsrə şəhərləri arasında yerləşən Musannaya doğru irəlilədilər (Ülkü, 2018, s. 31).

Qeyd edək ki, bu bölgələrin hər birinin Sasanilər üçün strateji əhəmiyyəti var idi. Belə ki, müasir İraqın şimalında yerləşən Bədəklə ərazisi Fərat çayına nəzarət etməklə Kufa və Bəsrə kimi mühüm ərazilərlə əlaqə saxlamaq baxımından Sasanilər imperiyası üçün strateji əhəmiyyətə malik idi. Kəsfər

bölgəsi, Sasanilərin Qərbi Asiya ilə əlaqələrinin qorunmasında və Bizansın gələcək hücumlarının qarşısının alınmasında böyük əhəmiyyətə malik idi. Musanna şəhərinin itirilməsi isə Sasanilər imperiyasının cənub sərhədlərinin işğalına yol aça bilərdi. Bu səbəbdən də Musanna şəhəri üzərində nəzarəti ələ keçirmək üçün həm Sasanilər, həm də ərəb qoşunları arasında uzun və gərgin döyüşlər baş verirdi. Əks hücum zamanı Sasani qoşunları xüsusi ilə Fərat çayı boyu bölgələrdə yaşayan yerli əhalini ərəb istilaçılarına qarşı üsyana qaldırmağa çalışırdılar.

Lakin Sasanilərin üsyanı qızışdırmaq cəhdlərinə baxmayaraq, ərəb qoşunlarının dəyişən şərtlərə tez uyğunlaşma bacarığı və yüksək hərbi hazırlığı sayəsində sayəsində bu cür üsyanlar tez bir zamanda yatırıldı. Rüstəm Fərruxzad itirilmiş ərazilərin geri alınması üçün Sasani ordularının başında İraqa gəldi və burada ərəblərə qarşı müxtəlif hərbi əməliyyatlar həyata keçirdi.

Baş verən hadisələri çox diqqətlə izləyən xilafət qoşunlarının məhşur sərkərdələrindən biri olan Müsənna ibn Harisə İraqda baş verən hadisələr haqqında Mədinəyə, Ömər ibn Xəttaba mütəmadi olaraq məlumat verirdi. İraq cəbhəsindən gələn təhlükədən narahat olan Ömər Xilafətin bütün qüvvələrini səfərbər etdi və bir-birinin ardınca ordular toplayıb Sasanilərə qarşı göndərdi. Tərəflər arasında baş verən beş böyük döyüşün yalnız birində məğlub olan ərəblər sonda qəti qələbə qazana bildilər ki, bu da şərqdə, İran ərazisində ərəb hökmranlığının qurulmasına və Sasani imperiyasının mövcudluğuna son qoyulmasında mühüm rol oynadı (Nəsirov, 2014, 315/321).

Qüdrətli Sasani dövləti ilə Xilafətin hərbi qarşıdurmalarını təhlil etsək, qeyd etmək lazımdır ki, İslamın yaranması və Ərəbistan yarımadasında sürətlə yayılmasından sonra Ərəb Xilafəti ilə Sasani imperiyası arasında qarşıdurma qaçılmaz idi. Çünki Sasanilərlə qonşuluqda yaşayan ərəblər onların müdafiə qabiliyyətinin zəiflədiyini və hakim olduqları böyük imperiyanın sakinlərinin farsların ağır vergi siyasətindən narazı olduqlarını çox yaxşı bilirdilər. Sasanilərin vergi siyasəti, xüsusi ilə kəndli və aşağı təbəqə əhalisi üçün ağır yük olaraq sosial narazılıqlara səbəb olurdu. Belə ki, torpaq sahibləri tərəfindən tətbiq olunan əlavə vergilər və işçilərin istismarı əhalinin həyat şəraitini çətinləşdirirdi.

Ağır vergi siyasəti Sasanilərin daxili ziddiyyətlərini artıraraq, xarici təhdidlərə qarşı müdafiə qabiliyyətini zəiflədirdi. Ərəblər isə xüsusi ilə də Rəşidi xəlifələrinin dövründə fəth etdikləri ərazilərdə yerli əhalinin mədəniyyətinə və adət-ənənələrinə hörmətlə yanaşır, onlara öz həyat tərzlərini davam etdirməyə imkan verirdilər. Müxtəlif dinlərin nümayəndələri olan yerli əhali, müəyyən vergi ödənişi qarşılığında öz dini inanclarında qala bilir və əmin-amanlıq şəraitində yaşayırdı. Bu yanaşma İslamın dininin təməl prinsiplərinə uyğun olaraq yerli əhalinin sosial və mədəni həyatını qorumağa yönəlmişdi. Lakin Sasanilərin ərəblərə müqavimət göstərə bilməməsinin digər əsas səbəbi təkcə yerli əhalinin onlara qarşı narazılığı ilə məhdudlaşmırdı.

Bizansla davamlı müharibələr də Sasanilərdə daxili siyasi gərginlik meydana gətirir və hərbi resurslarını əhəmiyyətli dərəcədə azaldırdı. Məhz bu amillər Sasani imperiyasını xeyli zəiflətdi və onların ərəb istilasına qarşı müdafiə üçün qüvvələrini səmərəli səfərbər etmək imkanından məhrum etdi. İslamın yayılmasını və ərazilərinin genişlənməsini hədəfləyən Ərəb Xilafəti Sasanilərin daxili və hərbi zəifliklərindən faydalanaraq sərkərdə Süxeyl İbni Adi Əl-Xəzrədcinin Kirman vilayətini fəth etməsi ilə Sasani imperiyasını tamamilə işğal etdilər (Əlizadə, 2003, s. 84).

Hələ ilk Rəşidi xəlifəsi Əbu Bəkrin hakimiyyət illərində döyüş meydanında şücaəti ilə məhşur olan ərəb sərkərdəsi Xalid İbn Valid əsrlərlə davam edən müharibələrdən və daxili çəkişmələrdən tükənmiş Bizans imperiyasına qarşı bir neçə hərbi yürüşlər həyata keçirdi. Bu kəşfiyyat yürüşləri müvəffəqiyyətlə nəticələnərək müsəlman dövlətinə çoxlu qazanc gətirdi. Ömərin hakimiyyətinin ikinci ilində Xilafət qoşunları Bizans imperiyasının bir vilayətini təşkil edən Suriya və Fələstinin sistemli şəkildə işğalına başladılar (Knış, 2015, s. 76).

Suriya və Fələstin ərazilərinin Ərəblər tərəfindən işğalı iki mərhələdə baş verdi. 634-cü ildə baş verən Əcnadeyn və 636-cı ildə gerçəkləşən Yərmuk döyüşlərində Xilafət qoşununun inamlı qələbəsi Bizans imperiyasının Şərqi Aralıq dənizi ərazilərində hökmüranlığına son qoydu (Ulku, 2018, s. 48-49).

Əcnədeyn və Yərmuk döyüşləri ərəblərin Şərqdə genişlənməsinin başlanğıcını qoymuş, Bizans imperiyasının isə gücünü zəiflətmiş, ərəblərə Şərqdə böyük bir ərazi qazandıraraq İslamın yeni bir dünya gücü kimi meydana çıxmasına şərait yaratmışdır. Belə ki, Əcnədeyn döyüşü tərəflər arsında ilk böyük toqquşma olmaqla bərabər, Ərəb xilafətinin Misir və Şimali Afrika kimi yeni ərazilərə

doğru genişlənməsinin yolunu açdığı halda, Bizansın Suriya üzərindəki hakimiyyətini tamamilə sona çatdırdı. Yərmuk döyüşünün nəticəsi olaraq Ərəb Xilafəti Şam, Fələstin, Suriya və Misrə doğru genişlənərək Avrasiyanın böyük hissəsinə yayıldı. Bizansın məğlubiyyəti isə imperiyanın Şərqdəki liderlik mövqeyini sona çatdırmış oldu və hücum strategiyasından müdafiəyə çəkilməyə məcbur etdi. Bu iki döyüş həm də Xristian Bizans ilə Müsəlman Xilafəti arasında baş verən ilk böyük toqquşmalar idi.

Ümumiyyətlə, Ömər ibn Xəttab xristian dünyası ilə münasibətləri çox diqqət və xüsusi həssaslıqla qururdu. Onun xilafəti dövründə İslam dünyası ilə xristianların birgə yaşaması və qarşılıqlı hörmət prinsipləri ön planda idi. İşğal edilmiş ərazilərdə xüsusi ilə də xristianların çoxluqda olduğu bölgələrdə, onların dini hüquqları qorunurdu. Bunun bariz nümunəsi kimi, Qüdsün işğalı zamanı Məsihin dirilmə kilsəsinin məscidə çevrilməyib, öz əvvəlki statusunda qalmasını göstərmək olar (Mardanşin 2012, s. 68).

İşğalların qızğın dövründə Fələstin və Suriyaya səfər edən Ömər ibn Xəttabın zəbt olunmuş ərazilərdə əvvəlki idarəçilik qaydalarını saxladığı məlumdur. Kitab əhli olaraq bilinən xristianlardan Qurani-Kərimin Bəqərə surəsinin 256 cı ayəsi əsas götürülərək (dində məcburiyyət yoxdur) əsasən cizyə və xərac vergiləri alınırdı (Qurbanov, 2009, s. 89).

Ömər dövlətin idarəetmə strukturlarında bir sıra islahatlar həyata keçirərək Xilafəti hərbi dairələrə bölmüşdü. İslahat vilayətlərə müəyyən dərəcədə muxtariyyət verməklə bərabər, döyüş qənimətlərindən həm hərbiçilərlərə, həm də cəmiyyətin digər ehtiyacı olan təbəqələrinə pay ayrılmasını nəzərdə tuturdu.

Ümumiyyətlə qeyd edək ki, Xəlifə Ömərin xilafəti dövlət gəlirlərinin böyük hissəsinin yoxsullara paylandığı bir dövr hesab edilir. Belə ki, IX əsrdə yaşamış ərəb tarixçisi Əbul-Həsən əl-Bəlazuri müəlliffi olduğu "Fütüh əl-Büldən" əsərində 639-cu ildə Mədinədə "Aclıq ili" olduğunu qeyd edərək Xəlifə Ömər İbni Xəttabın əmri ilə həmin ildən əhaliyə “Atiyyə” adlı illik ödənişlər edilyini qeyd edir (Köse, 2023, s. 223-225).

Ümumilikdə Ömər ibn Xəttabın on illik Xilafət dövrünə nəzər saldıqda aydın görmək olar ki, bu böyük şəxsiyyətin dövləti və xalqı qarşısında xidmətləri misilsizdir. O, xalqın güzaranından xəbərdar olmaq üçün heç bir mühavizəsi olmadan gecələr gizlincə şəhərə çıxar, yoxsul və ehtiyacı olanlara azuqə paylayırdı. Onun fikir və ideyaları İslamın yayılmasına və Xilafətin genişlənməsinə həsr olunmuşdu.

Nu da qeyd edək ki, Rəşidi xəlifələrinin ən qüdrətlisi olan Ömər ibn Xəttab çox ədalətli idi və bu səbəbdən də onun ölümü İslam dünyasında böyük bir itki hesab edilirdi. Ömər ibn Xəttab 31 oktyabr 644-cü ildə, Bəsrə valisi Muğirə ibn Şöbənin fars köləsi tərəfindən Mədinədə sübh namazı zamanı xəncərlə vurulmuş və aldığı ağır yaralardan üç gün sonra, elə həmin ilin noyabr ayının üçündə vəfat etmişdir(Qurbanov, 2009, s. 29).

Bəzi qərb tarixçilərin fikrincə, qatil, öz xalqının qisasını almaq məqsədi ilə Ömər ibn əl-Xəttaba sui-qəsd etmişdir. Fərqli düşünən tətqiqatçılar isə sui-qəsdin yalnız şəxsi incikliyə dayandığını iddia edirlər. Ömər ibn Xəttabın öldürülməsi ilə bağlı digər mənbələrdəki məlumatlar əsasında aparılan təhlilimiz onu göstərir ki, baş verən hadisənin arxasında şəxsi qisas məsələsi dayanır. Belə ki, Sasani imperiyasının sonunu yaxınlaşdıran Nəhavənd döyüşündə əsir düşənlər arasında Əbu Lulu künyəsi (ləqəb) ilə tanınan, Firuz adında məcusi (oda sitayiş edən) bir kölə var idi. O, eyni zamanda dülgərlik, dəmirçilik və nəqqaşlıqla məşğul olduğu üçün sahibi onun qazancından adi vergidən bir qədər artıq vergi alırdı. Günlərin birində Firuz ödədiyi verginin çoxluğundan tez-tez şəhərin ticarət həyatına nəzarət etmək üçün gəzən Xəlifə Ömərin qarşısında şikayətini bildirirdi. Ömər isə Firuza kölə ilə ağası arasında bağlanmış müqaviləyə üçüncü bir şəxsin müdaxiləsinin yolverilməz olduğunu və vergisinin çox olmadığını bildirdi. Ömərin bu cavabı köləni çox qəzəbləndirmişdi.

Küfəli tarixçi İbni Əbi Şeybə əl-Nəxə'i müəllifi olduğu "əl-Müsənnəf" əsərində sui-qəsdən bir gün əvvəl Ömər ibn Xəttabla Firuz arasında olan dialoqu təqdim edir : “Firuzla bu söhbət zamanı Ömər ibn Xəttab ona dedi ki, “eşitmişəm sən çox gözəl yel dəyirmanı düzəldə bilmənlə öyünürmüşsən. Mənimçün də belə bir dəyirman düzəldərsənmi?” sualına Firiz əgər sağ qalsam, səninçün elə bir dəyirman düzəldəcəm ki, sorağı şərqdən qərbə qədər yayılacaq, deyə cavab vermişdi. Firuzun yanından uzaqlaşan Ömər ibn Xəttab onun bu eyhamlı cavabından şübhələnərək

yanındakılara bu kölənin məni necə hədələdiyini eşitdinizmi? deyərək fikrə getmişdir" (Nəsirov, 2014, s. 382).

Ertəsi gün səhər namazı vaxtı məsciddə gizlənən Firuz Ömər ibn Xəttaba sui-qəsd etmişdi. Ömər ibn Xəttab, ölümcül yaralanmasından üç gün sonra, 63 yaşında, bir vaxtlar Peyğəmbərin yaşadığı gil evdə axşam saatlarında vəfat etmişdi və ölümündən əvvəl isə yaxınlarına söylədiyinə görə, ən böyük xoşbəxtçiliyinin müsəlman tərəfindən qətlə yetirilməməsi olduğunu bildirmişdir (Mardanşin, 2012, s. 69-70).

İslam tarixində sui-qəsdlə öldürülən ilk yüksək vəzifəli şəxs olan Ömər ibn Xəttab son günlərində müdrikliyini əldən verməyərək, Peyğəmbərin xanımı Aişənin yanına oğlu Abdullanı göndərək Peyğəmbərin və Əbu Bəkrin yanında dəfn ediləməsi üçün icazə istəmişdi. Aişə icazə verərək "Mən bu yeri özüm üçün saxlamışdım, amma Ömər bu yerə daha çox layiqdir söyləmişdir" (Ulku, 2018, s. 57).

## Nəticə

Beləliklə, İslam tarixində Raşidi xəlifələri dövrünün ən parlaq nümayəndələrindən biri olan Ömər ibn Xəttabın gördüyü işlər və xidmətləri ƏrəbXilafətinin möhkəmlənməsində böyük əhəmiyyətə malik olmuşdur.

Xüsusi olaraq qeyd etmək istərdik ki, Ömər ibn Xəttabın hakimiyyəti illərində Ərəb xilafətinin hərbi, inzibati və maliyyə strukturları formalaşdı.

Ömər həmçinin, İslam dünyasında hüquqi və sosial islahatlar həyata keçirərək, yeni dövlətin möhkəm təməllərini atdı. Onun fərmanları, ciddi hərbi nizam-intizam tətbiq etməklə yerinə yetirilirdi.

Döyüşçülər, onların ailələri, hərbi xidmətlərinə görə səxavətli təzinatlar və işğallar zamanı qənimətlərdən əldə edilən böyük ölçüdə pay alırdılar.

Ən əsası isə İslam dini təkcə Məkkədəki ilk müsəlman ərəblərin şəxsi kultundan çıxaraq bütün ərəb qəbilələrinin birliyinin dayandığı mənəvi ideoloqiyaya çevrildi.

## Ədəbiyyat

1. Alizade, A. *(2003).* Xronika musul'manskikh gosudarstv I–VII vv. Xidzhry. Bakı: Tipografiya PTK «Abilov, Zeynalov i synov'ya».
2. Folta, Y. *A., & Novy, L.* (1987). Istoriya yestestvoznaniya v datakh. Moskva: Progress.
3. Knysh, A. *D.* (2015). Islam v istoricheskoy perspektive: nachal'nyy etap i osnovnyye istochniki. Kazan': Izdatel'stvo Kazanskogo universiteta.
4. Köse, F. *B.* (2022). İslam Tarihi I. Erzurum: Atatürk Üniversitesi Açıköğretim Fakültesi neşriyatı.
5. Köse, F. *B.* (2023). İslam Tarihi I cilt. Erzurum: Atatürk Üniversitesi Yayinları.
6. Mardanshin, M. *(2012).* Istoriya Islama. Kazan': YAZ.
7. Musayev, Ə. *(2013).* Qurani Kərimin Azərbaycan dilinə mənaca tərcüməsi. Bakı: Şərq-Qərb Nəşriyyat Evi.
8. Mutlu, M. *Z.* (2018). Doğuşdan günümüze İslam tarihi. I cilt. İstanbul: Çığır Yayınları.
9. Nəsirov, E. *(2014).* İslam Tarixi. I cild. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi.
10. Qurbanov, A. *(2009).* İslam tarixi. II cild. Bakı: Bakı İslam Universiteti.
11. Rodionov, M. *A.* (2001). Islam klassicheskiy. Sankt-Peterburg: Peterburgskoye Vostokovedeniye.
12. Stogov, D. *I.* (2018). Islam: istoriya i sovremennost'. Sankt-Peterburg: LETI.
13. Uludağ, H. *(2016).* İslam Tarixi. I cild. İstanbul: Çelik Yayın Evi.
14. Ul'kyu, K. *(2018).* Istoriya Islama. Stambul: Erkam.
15. Yıldırım, H. *(2013).* Dörd Böyük Xəlifə. İstanbul: Sağlam nəşriyyatı.
16. Yılmaz, H. *(2016).* Hz. Məhəmməd, xilafət, dörd xəlifə və Hz. Həsən. Ankara: Elips Kitap.

Daxil oldu: 19.03.2025
Qəbul edildi: 19.05.2025